**«TƏSDİQ EDİLMİŞDİR»**

«Xalq Sığorta» Açıq Səhmdar Cəmiyyətinin
Direktorlar Şurasının İclasının
14 sentyabr 2009-cu il tarixli, 03 №-li Protokolu

Direktorlar Şurasının Sədri K.V.Tahirli ____________

M.Y.

**«Xalq Sığorta» Açıq Səhmdar Cəmiyyətinin**

# İNVESTİSİYA SİYASƏTİ

## 1. Ümumi müddəalar

1.1. "Xalq Sığorta" ASC-nin (bundan sonra "Cəmiyyət" adlandırılacaq) investisiya siyasəti (bundan sonra "Siyasət" adlandırılacaq) «Sığorta fəaliyyəti haqqında» Azərbaycan Respublikasının Qanununun (bundan sonra "Qanun" adlandırılacaq) 30-cu maddəsinə əsasən, həmin Qanuna və Azərbaycan Respublikasının digər qanunvericilik aktlarına, habelə Azərbaycan Respublikasının Maliyyə Nazirliyinin təsdiq etdiyi "Sığortaçıların investisiya əməliyyatları ilə bağlı Qaydalar"a uyğun olaraq hazırlanmış və "Xalq Sığorta" ASC-nin öz vəsaitinin, həmçinin sığorta ehtiyatlarını təmin edən vəsaitlərin investisiyaya yönəldilməsinin əsaslarını müəyyən edir.

## 2. Siyasətin məqsədi

2.1. Siyasətin məqsədi Cəmiyyətin investisiya əməliyyatları zamanı böyük itkilərə məruz qalma risklərinin qarşısını almaq və gəlir əldə etmək üçün səmərəli fəaliyyətinin təmin edilməsidir.

## 3. Siyasətin predmeti

3.1. Cəmiyyətin investisiyalarının əsaslarını onun öz vəsaiti və sığorta ehtiyatlarını təmin edən vəsaitlərdir.

3.2. Cəmiyyətin öz vəsaiti etibarlılığı, mənfəətliliyi, likvidliyi və müxtəlifliyi nəzərə alınmaqla investisiyaya yönəldilir və bu vəsaitin onun məcmu kapitalının hesablanması üçün qəbul edilən hissəsi aktivlərin aşağıdakı qrupları ilə ifadə olunur:

3.2.1. dövlət qiymətli kağızları;
3.2.2. bank hesablarındakı pul vəsaitləri;
3.2.3. daşınmaz əmlak;
3.2.4. qeyri-dövlət qiymətli kağızları;
3.2.5. digər hüquqi şəxslərin nizamnamə kapitalına qoyulmuş vəsaitlər;
3.2.6. işçilərinə borc verilmiş pul vəsaitləri.

3.3. Cəmiyyətin sığorta ehtiyatlarını təmin edən pul vəsaitləri etibarlılığı, mənfəətliliyi, likvidliyi və müxtəlifliyi nəzərə alınmaqla investisiyaya yönəldilir və aktivlərin aşağıdakı qrupları ilə ifadə olunur:

3.3.1. dövlət qiymətli kağızları;
3.3.2. bank hesablarındakı pul vəsaitləri;

3.3.3. daşınmaz əmlak;
3.3.4. qeyri-dövlət qiymətli kağızları;
3.3.5. sığorta və təkrarsığorta müqavilələri üzrə alınmalı olan sığorta və təkrarsığorta haqları;
3.3.6. sığorta ehtiyatlarında təkrarsığortaçıların payı;

3.4. Sığorta ehtiyatlarını təmin edən pul vəsaitləri aktivlərin bu Siyasətin 3.3.1-3.3.6-cı maddələrində göstərilməyən qruplarına investisiyaya yönəldilə bilməz.
3.5. Cəmiyyət Qanunla nəzərdə tutulmuş qaydada öz işçilərindən başqa heç kəsə borc verə bilməz.
3.6. Cəmiyyətin öz vəsaitinin və sığorta ehtiyatlarını təmin edən pul vəsaitlərinin investisiyaya yönəldilməsi Qanunun 62.2-ci maddəsində nəzərdə tutulmuş və sığorta nəzarəti orqanı tərəfindən müəyyənləşdirilmiş sığortaçıların investisiya əməliyyatları ilə bağlı qaydalara müvafiq olaraq həyata keçirilir.

## 4. Siyasətin aparılması

4.1. Cəmiyyətdə investisiya əməliyyatlarının aparılması qanunvericiliyin tələblərinə, Cəmiyyətin təsis və daxili sənədlərinə uyğun olaraq bu Siyasətə əsasən həyata keçirilir.
4.2. Cəmiyyətin vəsaitlərinin investisiya portfeli, o cümlədən portfel üzrə investisiya istiqamətləri (növləri) və onların xüsusi çəkiləri Direktorlar Şurası tərəfindən müəyyənləşdirilir.
4.3. Cəmiyyətdə investisiya əməliyyatları onların etibarlılığı, mənfəətliliyi, likvidliyi və müxtəlifliyi nəzərə alınmaqla, İdarə Heyətinin təqdimatı ilə Direktorlar Şurasının qərarı ilə icra olunur.
4.4. İdarə Heyəti hər rübün yekunu üzrə investisiya portfelinin tərkibini və mənfəətliliyini təhlil edir, maliyyə və fond bazarları üzrə araşdırmalar aparır və zəruri dəyişikliklərin edilməsi üçün təklifləri Direktorlar Şurasına təqdim edir.

## 5. Yekun müddəalar

5.1. Bu Siyasət Cəmiyyətin Direktorlar Şurasının qərarı ilə təsdiq edildikdən sonra qüvvəyə minir.
5.2. Bu Siyasətə Cəmiyyətin Direktorlar Şurasının qərarı ilə əlavə və dəyişikliklər edilə bilər.